## 9. Maliyyə sabitliyinin qiymətləndirilməsi məqsədi ilə istifadə edilən indekslər

*Bank sektorunun maliyyə dayanıqlığı indeksi* - Hesablanması zamanı bank sisteminin daha çox həssas olduğu risklər nəzərə alınır. İstifadə edilən göstəricilər aşağıda qeyd olunmuş qruplara bölünür:

1. Kapital səviyyəsini əks etdirən göstəricilər;
2. Likvidlik risklərini əks etdirən göstəricilər;
3. Rentabellik göstəriciləri;
4. Bazar riskləri üzrə göstəricilər;
5. Aktivlərin keyfiyyətini əks etdirən göstəricilər.

Göstəricilərə dair həddlər statistik üsüllara və beynəlxalq təcrübəyə əsasən müəyyən olunur və verilmiş limitlərdən kənarlaşmalar risklərin azalıb və ya artmasını özündə əks etdirir. Hər qrup üzrə ümumiləşdirilmiş nəticə göstəricilərin orta ölçülmüş qiyməti əsasında hesablanır.

İndeks indikator qruplarının orta riyazi qiyməti kimi müəyyənləşir.

*Bank sektorun kövrəklik indeksi* – bank sektorunun davamlığını əks etdirir. İndeks özəl sektora kreditlərin, xarici borc öhdəliklərinin və əhalinin əmanətlərinin standart kənarlaşmanın orta qiyməti olaraq müəyyən edilir.

Bu göstəricilərin kəskin dəyişməsi bank sektorunun dayanıqlığına təsir edir (məsələn, bank depozitlərin çıxarılması, kreditlərin yüksək artım tempi, devalvasiya göslənti̇ləri zaman pul axını və s.).

Bank sektorunun kövrəklik indeksi (BSFI) aşağıda göstərilmiş düstur əsasında hesablanır:

$$BSFI = \frac{\left(\frac{CPS_t - \mu_{cps}}{\sigma_{cps}}\right) + \left(\frac{FL_t - \mu_{fl}}{\sigma_{fl}}\right) + \left(\frac{DEP_t - \mu_{dep}}{\sigma_{dep}}\right)}{3}$$

$$CPS_t = [\frac{(LCPS_t - LCPS_{t-12})}{LCPS_{t-12}}] \quad FL_t = [\frac{(LFL_t - LFL_{t-12})}{LFL_{t-12}}] \quad DEP_t = [\frac{(LDEP_t - LDEP_{t-12})}{LDEP_{t-12}}]$$

burada,

*LCPS* – özəl sektrora kreditlər;
*LFL* – xarici borc üzrə öhdəliklər;
*LDEP* – əhalinin əmanətləri;
*CPS* – özəl sektrora kreditlərin illik dəyişməsi;
*FL* – xarici borc üzrə öhdəliklərin illik dəyişməsi;
*DEP* – əhalinin əmanətləri göstəricilərin illik dəyişməsi;
μ və σ – göstəricilərin müvafiq olaraq orta riyazi qiyməti və standart kənarlaşmasıdır.

Tarixi bazaya əsaslanan hesablamalar və beynəlxalq təcrübəyə əsasən indeks dəyəri $-0.5 < BSFI < 0$ arasında qiymət aldıqda bank sektoru orta dərəcədə kövrək, $BSFI \leq -0.5$ isə bank sektorunun yüksək səviyyədə davamsız olduğu qəbul edilir.